# YETMİŞ YAŞINDA GÖRƏ BİLMƏDİYİMİZ VAQİF İBRAHİM

*("Dünya, səndən kimlər keçdi" silsiləsindən)*



VAQİF YUSİFLİ

O, cəmi 38 il yaşadı. 1945-ci ildə Şəkidə doğuldu, 1983-cü ildə Bakıdan Sumqayıta gedən aıtobus qəza törətdi, o qəzadan bircə Vaqif İbrahim sağ çıxmadı. Həmin il oktyabrın 29-da Sumqayıtda dəfn olundu.

Yetmiş-səksəninci illərin ən populyar şairlərindən biri idi Vaqif İbrahim. Altmışıncı illərin sonlarında ədəbiyyata gəlmişdi, ilk kitabı "u torpaqda doğulanlar" 1970-ci ildə "Gənclik" nəşriyyatı tərəfindən işıq üzü görmüşdü. Onun qəfil ölümünə qədər Azərbaycan dilində dörd, rus dilində (Moskvada) bir kitabı çapdan çıxdı. "Oqonyok"da, "Literaturnaya qazeta"da, "Komsomolskaya pravda"da şeirləri dərc edilirdi. Rusca çıxan şeirlər kitabına görə Ümumittifaq Qorki mükafatına layiq görülmüşdü. Elə yetmişinci illərdə Azərbaycan komsomolu mükafatı laureatı idi. Sumqayıtda Əli Kərim adına gənclik poeziya klubu yaratmışdı. Komsomolun xətti ilə bir ədəbi dərnək də yaratmışdı. Son iş yeri "Göyərçin" jurnalı məsul katib işləyirdi.

Vaqif İbrahimin yaratdığı ədəbi dərnəyə o illərin cavanları həvəslə gedir, burada əsl poeziya dərsi keçir, sonra isə elə çox vaxt onun köməkliyilə mətbuatda ilk şeirlərini çap etdirirdilər. Yəqin ki, indi yaşı altmışı keçən o zamanın cavan şairləri- Vaqif Bəhmənli, Sədaqət Kərimova, Fəxri Müslüm, Aqil Abbas, Məhərrəm Qasımlı, Ağacəfər Həsənli, Mahirə Abdullayeva, Kəmalə Abıyeva, Maşallah Məftun, Paşa Qəlbinur, Əbülfət Mədətoğlu, Əlisəmid Kür, Ziraddin Qafarlı, İslam Sadıq, Tofiq Nurəli Vaqif İbrahimi unutmayıblar. Sonralar Paşa Qəlbunur etiraf edəcək ki: "Biz səksəncilər onun "şinelindən" çıxmışıq, ona bənzəməyə çalışardıq. Müəllimimiz, əzizimiz Vaqif İbrahim yaradıcılıqda hamını bənzərsiz olmağa səsləyərdi, şeirin əlifbasından ta ən incə sirlərinə qədər aşkarlamağa, öyrətməyə çalışardı. Ancaq onun özü davanışlarıyla, şəxsiyyətiylə, ləyaqətiylə bir məktəb idi. Baxışı, oturuşu, duruşu, abrı-həyası, təmannasız böyük zəhmətlər bahasına başa gələn fəaliyyəti bir nümunə idi". Göründüyü kimi, bu adam ədəbi prosesdə öz fəallığı ilə seçilirdi. Amma qəfil ölüm onun ömrünə bir sükut pərdəsi çökdürdü. Vaqifin "Yaşamaq eşqi" şeirinə diqqət yetirirəm:

*Qəbristanlıq*
*sinif otağı kimi*
*sakit*
*elə bil*
*kimsə sual verib -*
*dinc qoymayıb dilini*
*- Kim yaşamaq istəyir?*
*Hamı*
*əlini qaldırıb,*
*başdaşına dönmüş*
*əlini.*

Vaqifin o dövrdə qələmə aldığı bir neçə komsomol ruhlu şeirləri də var və bu şeirlər istisna olunarsa, onun poeziyası öz müasirliyi, təzə söz demək iddiasında olan inadkarlığıyla seçilirdi.

Vaqif İbrahimin bir il öncə "Xan" nəşriyyatı tərəfindən çap olunan "Mən varam-70" şeirlər kitabı qarşımdadı. Bu şeirləri vaxtilə müxtəlif qəzet, jurnal səhifələrində oxumuşam. Ən azı 35-40 il əvvəl yazılmasına baxmayaraq bu şeirlərin əksəriyyəti öz saflığını, poetik dadını-duzunu, şirinliyini və kimsənin şeirinə qarışmayacaq üslubunu hifz edə bilib. Vaqif İbrahim Baxın, Azərbaycan haqqında 1967-ci ildə yazdığı bir şeirə, bu şeirdəki təşbihlər, metaforalar o illərin şeiri üçün təzə idi:

*Mən əbədi varam! deyən*
*bir igiddir Azərbaycan!*
*Azadlığın dodağından qopan*
*odlu bir beytdir Azərbaycan!*
*Məsləkini başı üstə*
*bayraq kimi möhkəm tutan*
*milyon əldir Azərbaycan*
*Düşmənimin başı üstə*
*qəzəbindən daşa dönmüş*
*bir yumruqdur Azərbaycan!*

Xalq şairi Sabir Rüstəmxanlı Vaqif İbrahimə həsr etdiyi "Ürəyinin şirəsini şeirlərinə qatan şair" yazısında onu Əli Kərimlə müqayisə edir. "Şeirlərinin sakit, amma tutumlu ifadə tərzində Əli Kərimin üslubu var idi". Doğrudur, çünki Vaqif İbrahim Əli Kərim kimi sözü ehya eləməyi, ona dirilik verməyi, bədii təsvir əlvanlığı bəxş etməyi bacarırdı. Bir şeirində ömrünün sanki qısa olacabına işarə edib yazırdı:

*Tale*
*Divar saatı*
*hər gün,*
*hər an qızılmış.*
*Ürəyim*
*Bu saatın*
*daşı kimi asılmış*
*Nə vaxtsa bir nöqtədə*
*Donub,*
*Qalacaq bu daş,*
*Donacaq heyrətindən:*
*Ömür bu qədər qısa*
*Bu qədər azdır nədən?*

Vaqifin bu şeirində "fikir poeziyası"nın ümdə əlamətləri nəzərə çarpır. Fikrin, deyiləcək mətləbin poetik xassə kəsb etməsi, yəni cilalanması prosesi isə təsvir obyektinə şairanə baxışı ilə seçilir. Onun bütün şeirlərində həyat eşqi, yaşamağın gözəlliyini duymaq nəşəsi diqqəti cəlb edir. Olsun ki, ilk sevgisi nakam olub, amma sevgi şeirlərində küskünlük, inciklik görünmürdü, bunlar məhəbbətin ülviliyinə inanan bir insanın nikbinliyindən doğurdu. Flora Xəlilzadə haqlı yazır ki: "Onun şeirləri xəyalın, yaddaşın gücünə qəlbimizdə uyuyanları xatırladır. Vaqif İbrahimin məhəbbətdəın, sevgidən, onun qüdrətindən, bir sözlə, həyat eşqirndən don geymiş misralarında sızıltıya, ağlamağa, göz yaşına rast gıəlmirik". "Mənim misralarım min-min əlimdir, Onları qəlbimdə sənsən bitirən. Ardınca boylanan min-min əllə mən, Səni səsləyirəm, de, eşidirsən?!". Sevgiyə inam onun şeirlərində hər cür yalanı, inamsızlığı təkzib edirdi. İnsan bəlkə də susuz yaşaya bilər, xəstəliyə tutular, amma sevgisiz yaşaya bilməz. "Bəzən sevənlər də yetim qalırlar".

*Bircə həsrətinmiş məni atmayan*
*Sənsiz bu dünyada ölüm-itimdir.*
*Nəfəsin dəyməyən, əlin çatmayan*
*Nəyim var bu evdə, hər şey yetimdir.*

Onun şeirləri ilk baxışda sakit, həyəcansız bir ovqat aşılayır, amma bir də görürsən ki, bu sakitlik çılğınlığa, hiss-həyəcan selinə döndü. "Bir gözəllik, aydınlıq Çilənib göyə, yerə. Dünya belə işəqli, Səma belə buludsuz Olmayıb birdən-birə"- bu sakit misraların ardınca ürəyin həyəcanlı ritimikasını ifadə edən misralar gəlir:

*Dünyanın yolunda mən*
*neçə dəfə özümü*
*oda-közə atmışam.*
*Mən onu alovların*
*qoynundan çıxarmışam.*
*Od tutub yanan evdən*
*körpəsini bayıra*
*çıxardan ata kimi.*
*Min-min iti süngüyə*
*qalxan edib sinəmi*
*mən onu güllələrin*
*qabağından almışam.*

Vaqifin şeirləri 79-ci illərin yeni şeir axtarışlarıyla səsləşirdi. Sabir Rüstəmxanlı, Çinciz Əlioğlu, Nüsrət Kəsəmənli bu illərdə ən gözəl şeirlərini yazırdılar. Onlar ənənəvi şeirin vəzn və ümumən forma xüsusiyyətlərinə sadiq qalır, amma məzmunda, gerçəkliyə münasibətdə, həyat hadisələrinin təsvirində fərqli çalarlarla diqqəti cəlb edirdilər. Bu fikri eynən Vaqif İbrahim haqqında da söyləmək olar. Vaqif İbrahim "Şeirlərim" adlı bir şeirində yazırdı ki: "Beləcə ötübkeçən günlərimin öz sözü, öz səsidir şeirlər. Bir az sevinc qarışıq, bir az kədər qarışıq, sıxılmış günlərimin şirəsidir şeirlər".

"Yeni şeir axtarışları ifadəsini işlətdim. Vaqifin əksər şeirlərində bu axtarışlar təkcə məzmun, fikir yeniliyilə deyil, həm də şeirdə bədii təsvir vasitələrinin təzəliyiylə də səciyyələnirdi. Vaqif deyəndə ki: "Ürəyim yol gedən qatara bənzər Çəkir qəm yükünü, hicran yükünü" - buradakı təşbih bəlkə o qədər də təzə deyil. Amma deyəndə ki: "Buludlar bir sac kimi, Qış qovurur damlaları, qovurur topa-topa. Qar yağır yerə-qovrulmuş qarğıdalı dəni kimi lopa-lopa" - bu mənzərə bədii təxəyyülün kəşfidir. Və yaxud: "Çaylar-sevgi dolu bir baxış kimi Çöllərin qəlbinə süzülüb axır" təzə idi.

Vaqifin adını çəkdiyim kitabda ilk dəfə çap olunan "Bələdçi" poeması var. Əri Böyük Vətən müharibəsindən qayıtmayan bir qadının intizarından, onun iki oğlunun ata həsrətindən söz açır.

*Çox çıxdı qarşıma adsız məzarlar,*
*Düşündüm*hansında yatır görən o?*
*Harda ki, naməlum əsgər qəbri var,*
*Sanıram atamın məzarıdır o.*
*Atamın dərdiylə çox yandı anam,*
*Düşdü baxışları onun izinə.*
*Əlləri qoynunda dayandı anam,*
*O gedən yolları yığdı gözünə.*

Otuz üç il keçir Vaqif İbrahimin ölümündən. Yaşasaydı, yetmiş bir yaşı olacaqdı. Amma Vaqif heç qırx yaşını görə bilmədi. Amma onu bizə unutdurmayan şeirləridir və bu şeirlərin ömrü Vaqifin öz ömründən də yaşlıdı... Rahat uyu, adaş!

